## “Vergi ödəyicilərinin bank hesabının dəyişdirilməsi” elektron xidmətinin

## İstifadəçi təlimatı

Vergi ödəyicisinin bank hesabında edilmiş dəyişiklik barədə məlumatın bank tərəfindən Dövlət Vergi Xidmətinə təqdim edilməsi məqsədilə **“Vergi ödəyicilərinin bank hesabının dəyişdirilməsi”** elektron xidməti üzrə müraciət ərizəsinin göndərilməsi üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA Token;
- SİMA imza.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Sonra “Vergi ödəyicilərinin bank hesabının dəyişdirilməsi” elektron xidməti üzrə müraciət ərizəsini təqdim etmək üçün "Yeni ərizə" xanasına ərizənin adı daxil edilir. Axtarış nəticəsində ekranda göstərilən müvafiq ərizə forması seçilir və yaxud "Hamısına bax" düyməsi vasitəsilə açılan pəncərədən də müvafiq ərizə forması seçilə bilər.




Əgər ərizə forması daha əvvəl doldurularaq qaralama kimi saxlanılıbsa, açılan pəncərədə həmin qaralama ərizə formaları göstərilir və onlardan birini seçmək imkanı yaradılır. Əvvəllər qaralama kimi saxlanılmış ərizə forması üzrə davam etmək istədikdə, müvafiq ərizə formasını seçərək aktivləşən "Davam et" düyməsini sıxır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və ona düzəliş etmək mümkün olur.




Yeni ərizə forması yaratmaq istədinilkdə isə, **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




Açılmış ərizə formasında "Siyahıya qayıt" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi seçilməklə ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, “Əsas səhifəyə qayıt” seçilməklə “Ərizələr” moduluna qayıtmaq, "Bəli, yadda saxlanılsın" düyməsi seçilməklə isə yaradılmış ərizə formasını yadda saxlamaq mümkündür.







**“Ümumi müddəalar” bölməsi**

Ərizə formasında “Vergi orqanı”, “Bank idarəsi” və “Rəhbər” barədə məlumatlar avtomatik əks olunur.




**“Bank hesabı məlumatları” bölməsi**

Vergi ödəyicisinin bank hesabında edilmiş dəyişiklik barədə məlumatların daxil edilməsi üçün **“Əlavə et”** düyməsi sıxılır və açılan **“Bank hesabı məlumatları”** pəncərəsində “**Bildiriş nömrəsi”** sahəsinə dəyişiklik edilən bank hesabı üzrə bildiriş nömrəsi daxil edilir və **“Axtar”** düyməsi sıxılır. Axtarış nəticəsində müvafiq bank hesabının aid olduğu vergi ödəyicisinin VÖEN-i və adı, hesab nömrəsi, valyutanın kodu, hesabın tipi və bankın filialı barədə məlumatlar avtomatik olaraq əks etdirilir.

**Bank hesabı məlumatları**

* Bildiriş nömrəsi

Axtar

Yeni hesabın tipi

Hesabın tipini seçin

Yeni valyutanın kodu

Valyutanın kodunu seçin

* Yeni hesabın nömrəsi

28 simvolluq hesab nömrəsini daxil edin

* Hesabın dəyişdirilmə tarixi

Tarix seçin

İmtina

Əlavə et

**Bank hesabı məlumatları**

* Bildiriş nömrəsi

Axtar

VÖEN/Adı

**9900083881/QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLİYİ**

Hesab nömrəsi

Valyutanın kodu

**USD - ABŞ dolları**

Hesabın tipi

**Cari hesablar**

Bankın filialı

**805250/"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ BAŞ OFİS**

Yeni hesabın tipi

Hesabın tipini seçin

Yeni valyutanın kodu

Valyutanın kodunu seçin

* Yeni hesabın nömrəsi

28 simvolluq hesab nömrəsini daxil edin

* Hesabın dəyişdirilmə tarixi

Tarix seçin

İmtina

Əlavə et

Sonra “Yeni hesabın tipi” və “Yeni valyuta kodu” sahəsində müvafiq olaraq yeni hesabın tipi və yeni valyuta kodu seçilir.




Növbəti addımda “Yeni hesabın nömrəsi” sahəsinə dəyişiklik nəticəsində müəyyən edilmiş yeni hesab nömrəsi daxil edilir.

Yekun olaraq “Hesabın dəyişdirilmə tarixi” sahəsində bank hesabında dəyişikliyin edildiyi tarix seçilir və “Əlavə et” düyməsi sıxılır.




Daxil edilmiş məlumatlar ərizə formasına əlavə olunur və müvafiq məlumatlar cədvəldə əks etdirilir. Zəruri olduqda cədvəldə əks olunan məlumatlara “Redaktə” düyməsi vasitəsilə düzəliş edilə, “Sil” düyməsi vasitəsilə isə həmin məlumatlar silinə bilər.




Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi seçildikdə istifadəçi yenidən ərizə formasının doldurulması pəncərəsinə qaytarılır.




Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



Ərizə

×

## Vergi ödəyicilərinin bank hesabının dəyişdirilməsi

**Qeydiyyat nömrəsi 2616010025051100 | Qəbul olundu 10.08.2026 saat 12:06**

Endir

## Ümumi müddəalar

| | |
|---|---|
| Vergi orqanının adı | 2 saylı Ərazi Vergilər Baş İdarəsi |
| Bank idarəsinin VÖEN/Adı | 9900001881/"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Rəhbər | 5N983U3/MURAD ƏZİMZADƏ FƏRHAD OĞLU |

## Bank hesabı məlumatları

| Bildiriş nömrəsi | VÖEN/Adı | Hesabın nömrəsi | Valyutanın kodu | Hesabın tipi | Bankın filialı | Yeni hesabın ti |
|---|---|---|---|---|---|---|
| | 9900083881/QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLİYİ | | USD - ABŞ dolları | Cari hesablar | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ BAŞ OFİS | Cari subhesabl |

< 1 >

Bağla

Vergi ödəyicisinin bank hesabında edilmiş dəyişiklik barədə bank tərəfindən “Vergi ödəyicilərinin bank hesabının dəyişdirilməsi” ilə əlaqədar göndərilən elektron ərizə “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

